# HÜSEYN ARİF

HÜSEYN ARİF

# ŞEİRLƏR

I cild

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Bakı - 2014

ARXİV

## SƏN OLDUN

*Füzulinin 400 illiyinə*

Çoxları güvəndi aşiqəm deyə
Eşqin rübabını çalan sən oldun.
Məcnunun səsini qaldırıb göyə,
Leylini dillərə salan sən oldun.

Dinsə də neçəsi xeyirdə, şərdə
Davam gətirmədi ağrıya, dərdə.
Üzdülər göllərdə gölməçələrdə
Dərin ümmanlara dalan sən oldun.

Həmdəmin bir qələm, bir də ki, varaq
Odlu nəfəsinlə yandı min çıraq.
Yer kimi al-əlvan güllər açaraq
Göy kimi boşalıb, dolan sən oldun.

Tanışdır ömrünə qış da, bahar da
İsti də, soyuq da, boran da, qar da.
Şirin avazınla qürbət diyarda
Vətənin könlünü alan sən oldun.

Hanı köhlən çapıb, qılınc oynadan
Dəryalar ayrılıb getdi dəryadan.
Sultan da, xaqan da köçdü dünyadan
Əsrdən-əsrə qalan sən oldun.